Azərbaycan Respublikası Biznes Mühiti və Reytinqlər üzrə Komissiyası
“Biznesin müflisləşməsi” İşçi qrupunun iclası

Protokol № 1

Bakı şəhəri **29 sentyabr 2026-cı il**

Sədrlik edən: **Abiddin Hüseynov - İşçi qrupun rəhbəri, ədliyyə nazirinin müavini**

Katib: **Raminə Xəlilova - Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin Sosial normativ aktlar idarəsinin böyük məsləhətçisi**

İştirak edirlər:
Səkinə Əliyeva - Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin rəis müavini, Tematik qrupun rəhbəri
Teymur Əhmədov - İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin müdir müavini
Vüqar Qurbanov - İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Operativ Vergi Nəzarəti və Uçotun Təşkili Baş İdarəsinin rəis müavini
Anar Muxtarov - Mərkəzi Bankın Rezolyusiya şöbəsinin müdiri
Zeynab Qənbərova - Ədliyyə Akademiyasının Tədris şöbəsinin rəisi
Seymur Həmidov - Məhkəmə-Hüquq Şurasının Korrupsiyaya qarşı mübarizə və məhkəmə monitorinqi sektorunun məsləhətçisi
Nəhmədova Şövkət - Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin İqtisadi normativ aktlar idarəsinin aparıcı məsləhətçisi
Vüsalə Əzizli - Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin İqtisadi normativ aktlar idarəsinin məsləhətçisi
Məmməd Balacanov - “Ernst & Young Holdings (CIS) B.V.” şirkətinin Azərbaycan Respublikasındakı filialının baş hüquqşünası
Dilarə İsrafilova - “BM Morrison Partners” şirkətinin direktor müavini
Aynur Hacıyeva - “Ekvita” şirkətinin hüquq meneceri
Leyli Əhmədova - “Deloitte & Touche” şirkətinin hüquq məsləhətçisi
Müslim Məmmədov - “Deloitte & Touche” şirkətinin hüquq məsləhətçisi
Nihad Əliyev - Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil

İştirak etməmişlər:

Telman Əliyev – "Caspian Energy Club"ın sədri və qrupun baş içracı direktoru
Günel Quliyeva – "Caspian Energy Club"ın idarəedici direktoru
Nigar Hafizqızı - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hüquqşünası
Nəzrin Yusifova - "PricewaterhouseCoopers Azerbaijan" şirkətinin təcrübəli hüquq məsləhətçisi
Suma Süleymanova - "Dentons" hüquq şirkətinin hüquq məsləhətçisi
Şaiq Mirzəyev – "Azərbaycan Hüquq İslahatları Mərkəzi" İctimai Birliyinin sədri
Natiq Paşayev - "Şıxlar" tikinti materialları kombinatı" MMC-nin direktoru
Kaul Məmmədov - Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Hüquq departamentinin müdiri
Könül Hüseynova - Bakı Apellyasiya Məhkəməsinin Analitik şöbəsinin müdiri
Əkrəm Həsənov - Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil
Abbas Abbasov - Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil

GÜNDƏLİK

1. "Biznesin müflisləşməsi" İşçi Qrupunun iclasının açılışı;
2. Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlər və onların icra vəziyyətinin müzakirəsi;
3. "Sağlamlaşdırma və müflisləşmə haqqında" qanun layihəsi barədə məlumat;
4. Müflisləşmə və iflas sahəsində təşkil olunan təlimlər;
5. Suallar və müzakirələr;
6. "Biznesin müflisləşməsi" İşçi qrupunun iclasının bağlanışı.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev İşçi qrupun iclasını açıq elan edərək iclas iştirakçılarını salamladı və o, bildirdi ki, "Biznesin müflisləşməsi" İşçi Qrupu Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın bilavasitə Dünya Bankının "Business Ready" hesabatına fokuslanmış İşçi qrupudur.

Vüsal Şıxəliyev qeyd etdi ki, İşçi qrup çərçivəsində irəli sürülmüş təkliflər və qarşıda duran çağırışlar nəzərə alınmaqla, cari ilin 11 mart tarixində İşçi qrupun Yol

Xəritəsi təsdiq edilmiş və ona uyğun olaraq aidiyyəti şəxslərin iştirakı ilə müvafiq tədbirlərin icrasına başlanılmışdır.

O bildirdi ki, beş istiqaməti əhatə edən Yol Xəritəsinin əsas prioritetlərindən biri qanunvericilik bazasının formalaşdırılmasıdır. Komissiyaya təqdim edilmiş məlumata əsasən bu tədbirin icrası üzrə işlər, demək olar ki, yekunlaşmışdır. Belə ki, İşçi qrupun, eləcə də aidiyyəti qurumların, xüsusilə də bu məqsədlə yaradılmış tematik qrupun iştirakı ilə müvafiq müzakirələr aparılmış, nəticədə hazırlanmış qanun layihələri hökumətə təqdim olunmaq üçün yekunlaşdırılma mərhələsinə çatdırılmışdır.

Vüsal Şıxəliyev hazırda qüvvədə olan və uzun müddətdir tətbiq edilən "Müflisləşmə və iflas haqqında" Qanuna toxunaraq, İşçi qrup tərəfindən müasir yanaşmaları və mövcud çağırışları əks etdirən yeni qanun layihəsinin hazırlanması təşəbbüsünün irəli sürüldüyünü qeyd etdi. Bildirdi ki, aparılmış intensiv işlər nəticəsində həm müasir çağırışlar, həm də ölkədə həyata keçirilən islahatların əsas xüsusiyyətləri nəzərə alınmaqla yeni qanun layihəsi hazırlanmışdır.

O, layihənin 2026-cı il üzrə Yol Xəritəsinə uyğun olaraq sentyabrın 1-dək hökumətə təqdim edilməli olduğunu, lakin müvafiq əsaslandırmalar nəzərə alınmaqla bu müddətin uzadılması üçün Komissiyaya müraciət edildiyini bildirdi.

Vüsal Şıxəliyev vurğuladı ki, əvvəlki dövrlərdə "Müflisləşmə və iflas haqqında" Qanuna müəyyən dəyişikliklər edilsə də, islahatların daha sistemli və səmərəli şəkildə həyata keçirilməsi baxımından məsələyə konseptual yanaşılması və ətraflı müzakirələrin aparılması xüsusi əhəmiyyət daşıyır.

Görülmüş işlərin əhəmiyyətini nəzərə alaraq, Vüsal Şıxəliyev tematik qrupun və İşçi qrupun üzvlərinə, o cümlədən görüşdə iştirak edən özəl sektor nümayəndələrinə və dövlət orqanlarının təmsilçilərinə görülən işlərə verdikləri töhfəyə görə xüsusi təşəkkürünü bildirdi.

Eyni zamanda, o qeyd etdi ki, cari ilin yekunlarına əsasən Dünya Bankının "Business Ready" hesabatının yeni nəşrinin təqdim olunması gözlənilir. Hazırda Dünya Bankı tərəfindən ekspert qiymətləndirmələri yekunlaşdırılma mərhələsindədir. Bu çərçivədə özəl sektordan toplanmış materiallar təhlil edilir, həmçinin aidiyyəti qurumlarla məsləhətləşmələr aparılır.

Ötən ilin nəticələrinə toxunan Vüsal Şıxəliyev bildirdi ki, biznesin müflisləşməsi sahəsində arzuolunan göstəricilərə nail olunmamışdır. Hesabat çərçivəsində müəyyən edilmiş sualların və problemlərin həlli məsələyə konseptual yanaşmanı zəruri etmişdir. O, yeni qanun layihəsinin qəbulunun və uğurla tətbiqinin növbəti dövrlərdə müflisləşmə sahəsində müsbət nəticələrin əldə olunmasına və ölkənin müvafiq göstəricilərinin yaxşılaşdırılmasına töhfə verə biləcəyini ifadə etdi.

Vüsal Şıxəliyev çıxışını sonlandıraraq iclasın aparılmasının təşkili, habelə qarşıda duran vəzifələrə və görülən işlərə dair məlumatların verilməsi üçün sözü İşçi qrupun rəhbəri, ədliyyə nazirinin müavini Abiddin Hüseynova verdi.

Abiddin Hüseynov Vüsal Şıxəliyevə çıxış üçün ona söz verildiyinə görə öz təşəkkürünü bildirdi və iclas iştirakçılarını salamladı. O, Komissiyanın Katibliyinin rəhbəri tərəfindən İşçi qrupun qarşısında duran vəzifələr və həmin vəzifələrin əhəmiyyəti barədə qısa məlumat verildiyini qeyd etdi.

O, bildirdi ki, 2026-cı il 11 mart tarixində İşçi qrupun 2026-cı il üzrə Yol xəritəsi təsdiq edilmişdir. Komissiyanın rəhbərinin də xüsusi vurğuladığı kimi, İşçi qrup qarşısında müəyyən edilmiş əsas hədəflərə nail olunmuşdur. Hazırda qarşıda duran əsas vəzifə

“Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsinin və onunla əlaqəli digər layihələrin hazırlanaraq hökumətə təqdim edilməsidir. Yol xəritəsinə əsasən sözügedən layihələrin hazırlanması üçün son müddət 2026-cı il 1 sentyabr müəyyən edilmişdir. İlkin mərhələdə layihənin qüvvədə olan qanuna dəyişikliklər edilməsi formasında hazırlanması nəzərdə tutulsa da, Ramin müəllimin İşçi qrupa rəhbərlik etdiyi dövrdə aparılmış müzakirələr nəticəsində yeni qanun layihəsinin hazırlanması barədə qərar qəbul edilmişdir. Bu məqsədlə alman ekspertləri tərəfindən təqdim olunmuş sənəd tərcümə edilmiş və 2025-ci ildə həmin model əsasında qanun layihəsinin ilkin variantı hazırlanmışdır. Lakin tematik qrupun və İşçi qrupun müzakirələri zamanı layihə məqbul hesab edilməmişdir.

Bununla əlaqədar olaraq, 2026-cı il 2 fevral tarixində Almaniyadan dəvət olunmuş müflisləşmə sahəsi üzrə beynəlxalq ekspertlər – Prof. Dr. Stephan Madaus və Dr. Abbas Abbasovun iştirakı ilə İşçi qrupun geniş tərkibdə iclası keçirilmişdir. Həmin iclasdan sonra İşçi qrupun və tematik qrupun fəal üzvlərinin iştirakı ilə qanun layihəsi daha ətraflı müzakirə edilmişdir. Sonrakı mərhələdə beynəlxalq ekspertlərin tövsiyələri, eləcə də sənədlə bağlı daxil olmuş digər təkliflər nəzərə alınmaqla tematik qrup tərəfindən yeni qanun layihəsi üzərində intensiv iş aparılmış və onun təkmilləşdirilmiş variantı hazırlanmışdır. Layihə münasibət bildirilməsi üçün Dr. Abbas Abbasova təqdim edilmiş, o isə layihə ilə bağlı müsbət fikirlərini ifadə etmişdir.

Eyni zamanda Abiddin Hüseynov vurğuladı ki, növbəti mərhələdə layihənin tematik qrup çərçivəsində yenidən müzakirəsi həyata keçiriləcəkdir.

O, həmçinin yeni müflisləşmə qanunvericiliyi barədə ictimaiyyətin məlumatlandırılması istiqamətində görülmüş işlərdən də bəhs edərək bildirdi ki, 2026-cı ilin fevral ayında “Caspian Club”ın təşkilatçılığı ilə görüş keçirilmiş və tədbirin əsas mövzusunu “Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsi təşkil etmişdir. Görüş zamanı sağlamlaşdırma və müflisləşmə sahəsində özəl sektor nümayəndələrini maraqlandıran suallar cavablandırılmış, eyni zamanda onların layihə ilə bağlı təklif və tövsiyələri dinlənilmişdir. Məqsədəuyğun hesab edilən təkliflər qanun layihəsinin hazırlanması prosesində nəzərə alınmışdır.

O əlavə etdi ki, qanun layihəsinin yekun variantı hazır olduqdan sonra özəl sektor nümayəndələrinin, sahibkarların və digər maraqlı tərəflərin iştirakı ilə əlavə maarifləndirici tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Abiddin Hüseynov Yol xəritəsi çərçivəsində müflisləşmə və iflas sahəsində hakimlərin və vəkillərin ixtisaslaşması istiqamətində tədbirlərin davam etdirildiyini qeyd edərək, bu barədə ətraflı məlumatın Ədliyyə Akademiyası Tədris şöbəsinin rəisi Zeynab Qənbərova tərəfindən veriləcəyini bildirdi.

Abiddin Hüseynov gündəliyə uyğun olaraq 2026-cı il üzrə Yol Xəritəsi çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən görülmüş işlər barədə məlumat verilməsi məqsədilə çıxışa başlamaq üçün sözü İşçi qrupun üzvü olan İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin müdir müavini Teymur Əhmədova verdi.

Teymur Əhmədov iclas iştirakçılarını salamladı və qeyd etdi ki, həmkarların da vurğuladığı kimi, bu il təsdiq edilmiş Yol xəritəsinə uyğun olaraq Işçi qrup tərəfindən işlər davam etdirilmişdir.

O bildirdi ki, İşçi qrup 2022-ci ildən fəaliyyət göstərir. İşçi qrup Dünya Bankının Business Ready layihəsinin biznesin müflisləşməsi indikatoru üzrə müflisləşmə sahəsində həm ölkə qanunvericiliyinin, ölkədə təşəkkül tapmış təcrübənin, həm də

beynəlxalq təcrübənin təhlil edilərək qanunvericiliyin təkmilləşdirilməsi, ölkədə bu sahədə institusional islahatların aparılması, o cümlədən maarifləndirmə işlərinin həyata keçirilməsi məqsədi ilə yaradılmışdır. Biznesdə sağlamlaşma və müflisləşmə məsələləri biznes mühitinin sabitliyinə və dolayısı ilə iqtisadi artıma birbaşa təsir edən əsas faktorlardan biri olduğundan İşçi qrupun fəaliyyəti dövründə İqtisadiyyat Nazirliyinin də fəal iştirakı və lazımi dəstəyi təmin olunmuşdur. Belə ki, Nazirlik tərəfindən illik yol xəritələrinə uyğun olaraq müxtəlif sənədlər, o cümlədən BMT-nin Beynəlxalq Ticarət Qanunvericiliyi Komissiyasının (UNCITRAL) Sərhədlərarası müflisləşmə haqqında Model Qanununun qanunvericiliyə implementasiyası ilə bağlı arayış, bundan başqa mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün sadələşdirilmiş sağlamlaşdırma və iflas prosedurlarının müəyyən edilməsi ilə əlaqədar layihə, habelə əmlak inzibatçılarının ictimaiyyətə açıq reyestrinin yaradılması ilə bağlı hazırlanmış arayış və təkliflər, habelə digər araşdırma sənədləri hazırlanaraq Komissiyaya təqdim edilmişdir.

Cari ilin Yol xəritəsinə uyğun olaraq UNCITRAL-ın “Sahibkar qruplarının müflisləşməsi haqqında Model Qanunu”nun qanunvericiliyə implementasiyası ilə bağlı müvafiq araşdırma aparılmış və nəticələri üzrə müvafiq arayış iyun ayında Komissiyaya təqdim edilmişdir.

Bundan əlavə, “Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsinin tematik qrup çərçivəsində müzakirəsi prosesində, eləcə də Yol xəritəsi üzrə həyata keçirilən digər tədbirlərdə İqtisadiyyat Nazirliyinin, o cümlədən Dövlət Vergi Xidmətinin iştirakı təmin edilmişdir.

Abiddin Hüseynov çıxış üçün Teymur Əhmədova öz təşəkkürünü bildirdi və “Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsi, eləcə də onunla bağlı olan digər layihələr barədə məlumatların verilməsi üçün sözü Qanunvericilik baş idarəsinin rəis müavini, Tematik qrupun rəhbəri Səkinə Əliyevaya verdi.

Səkinə Əliyeva Abiddin Hüseynova təqdimata görə öz təşəkkürünü bildirdi və iclas iştirakçılarını salamladı. O bildirdi ki, tematik qrup tərəfindən qanun layihəsinin təkmilləşdirmə zərurətinə ehtiyac olduğu qənaətinə gəlindiyindən müddətin uzadılması məqsədilə hökumətə müraciət edilmişdir. Bundan sonra layihə üzrə işə beynəlxalq ekspertlər Prof. Dr. Stephan Madaus və Dr. Abbas Abbasov cəlb edilmişdir. Belə ki, cari ilin 2 fevral tarixində onların iştirakı ilə geniş tərkibdə İşçi qrupun, daha sonra isə tematik qrupun iclası keçirilmişdir. 2 gün davam edən tematik qrupun iclasında qanun layihəsi maddə-maddə müzakirə edilmiş, beynəlxalq ekspertlərin tövsiyələri və təklifləri dinlənilmişdir. Müzakirələr zamanı müvafiq sahə üzrə beynəlxalq təcrübələr, ən yaxşı təcrübə nümunələri ilə yanaşı, uğursuz modellər də nəzərdən keçirilmişdir. Qanun layihəsi üzrə 5 ay ərzində davam edən iş prosesi nəticəsində layihənin təkmilləşdirilməsi əvəzinə, onun yeni bir variantının hazırlanmasına nail olundu. 16 fəsil, 162 maddədən ibarət olan bu layihənin hazırlanması zamanı bir sıra qabaqcıl beynəlxalq təcrübələrə, xüsusilə Almaniyanın Müflisləşmə Məcəlləsinə, eləcə də UNCITRAL-ın müflisləşmə prosesi ilə bağlı olan bələdçi sənədinə, habelə Avropa İttifaqının direktiv layihəsinə müraciət edilmişdir.

Səkinə Əliyeva sözünə davam edərək bildirdi ki, layihədə sağlamlaşdırma və müflisləşmə kimi 2 istiqamət üzrə hüquqi prosedurlar müəyyən edilmişdir. Sağlamlaşdırma proseduru isə iki növə ayrılmışdır: preventiv sağlamlaşdırma və müflisləşmə prosesi çərçivəsində sağlamlaşdırma. Eyni zamanda, layihədə qeyd olunan prosedurların həyata keçirilməsini təmin edən hüquqi institutları tənzimləyən müddəalar,

o cümlədən müflisləşmə inzibatçılarının hüquq və vəzifələri, onların peşə fəaliyyətinə dair tələblər, peşə fəaliyyətlərinin sığortası və digər müvafiq məsələlər öz əksini tapmışdır. Layihə hazırlanarkən əmlakın idarə edilməsinə münasibətdə de “debtor in possesion” modeli, müflisləşmə inzibatçısına münasibətdə isə 3 modeldən biri olan peşəkar assosiasiyanın üzvü olmayan model seçilmişdir ki, bu model məhkəmə tərəfindən müəyyən edilən modeldir. Lakin ekpsertlər tərəfindən müflisləşmə inzibatçısının dövlət orqanları (məsələn iqtisadiyyat, ədliyyə nazirlikləri və s.) tərəfindən təyin olunması tövsiyə edilmişdir. Layihədə müddətlər müəyyən edilərkən standart müddətlərə üstünlük verilib. Hər ölkənin özünün reallığına uyğun olaraq bu müddətlərin tənzimlənməsi vacibdir. Çünki müflisləşmə prosesində müddətlər çox önəmlidir, onların həddindən artıq çox uzun və ya çox qısa müəyyən edilməsi hər hansı problemlər və çətinliklərə səbəb ola bilər. Bu baxımdan mövqe və yanaşma müəyyən edən məsələlərin müzakirə edilməsinə, eləcə də gələcəkdə layihənin daha mükəmməl və tətbiqi təcrübəsində qeyri-müəyyənliklərin aradan qaldırılmasına yönəlmiş təkliflərin irəli sürülməsinə zərurət var.

O, qeyd etdi ki, münasibət bildirilməsi üçün sənəd Tematik qrupun üzvlərinə təqdim edilmiş və üzvlər tərəfindən müvafiq təkliflər irəli sürülmüşdür. Lakin həmin təkliflərin müzakirəsi hələ ki mümkün olmamışdır.

Eyni zamanda o, layihəyə verilən töhfələrə və irəli sürülən təkliflərə görə Tematik qrupun üzvlərinə təşəkkürünü bildirdi və layihə üzrə daxil olmuş təkliflərin Tematik qrup çərçivəsində müzakirə edilməsi məsələsinə baxılmasını xahiş etdi.

Səkinə Əliyeva vurğuladı ki, hazırda layihədə sağlamlaşdırma və müflisləşmənin standart rejimi tənzimlənir. Lakin sadələşdirilmiş rejimdə mövcuddur ki, burada mikro, kiçik sahibkarlarla bağlı müflisləşmə prosesi nəzərdə tutulur. Bununla bağlı İqtisadiyyat Nazirliyi müvafiq sənəd hazırlamışdır. Nazirlər Kabineti tərəfindən sadələşdirilmiş rejimin qanun layihəsi çərçivəsində nəzərə alınması təklif edilmişdir ki, hökumətə təqdim edilmə müddəti uzadılarsa həmin məsələyə baxılması mümkündür.

O sonda qeyd etdi ki, qanun layihəsində UNCITRAL-ın müflisləşmə haqqında model qanununa uyğun olaraq sərhədlərarası müflisləşməyə dair məsələlərdə öz əksini tapıb ki, bununla da Yol xəritəsinin 2.1-ci bəndi də icra olunmuş hesab olunur.

Abiddin Hüseynov Səkinə Əliyevaya təşəkkürünü bildirdi və əlavə etdi ki, Səkinə Əliyavanın da dediyi kimi bəzi məsələlər var ki, hüquqi deyil, məhz ölkənin spesifikası nəzərə alınaraq siyasi yanaşmalar, qərarlar tələb edir. Bu baxımdan vaxt itkisinə yol verməmək məqsədilə müvafiq yanaşma əsas götürülərək layihə hazırlandı. Beləliklə hökumətə təqdim edildikdən sonra ilkin müzakirələr, eləcə də digər dövlət orqanlarının təklifləri əsasında layihə yenidən nəzərdən keçiriləcəkdir.

Abiddin Hüseynov Səkinə Əliyevaya tematik qrup tərəfindən əlavə müzakirəsinin aparılması və hökumətə təqdim edilməsi üçün tələb olunan müddətlə bağlı sual ünvanladı.

Səkinə Əliyeva bildirdi ki, layihəyə dair hər bir qurumun təklifləri üzrə tematik qrupun üzvləri ilə həftədə bir dəfə müzakirələr aparılacağı təqdirdə, prosesin yekunlaşdırılması üçün təxminən bir ay kifayət edər.

Vüsal Şıxəliyev məsələyə etirazının olmadığını qeyd etdi və əsas məqsədin razılaşdırılmış və təkmilləşdirilmiş layihənin hökumətə təqdim edilməsi olduğunu vurğuladı. O qeyd etdi ki, beynəlxalq reytinqlər baxımından Dünya Bankının Business Ready hesabatının növbəti nəşri üzrə qiymətləndirmə prosesi artıq yekunlaşmaq üzrədir. Bu səbəbdən, qanun layihəsinin cari ilin göstəricilərinə təsir göstərmək imkanları, demək

olar ki, mövcud deyil. Bununla yanaşı, Business Ready çərçivəsində sorğu anketlərinin mart-aprel aylarında göndərildiyini nəzərə alaraq, layihənin həmin dövrədək qüvvəyə minməsinin zəruri olduğunu bildirdi.

Vüsal Şıxəliyev, həmçinin yeni qanun layihəsi qüvvəyə mindikdən sonra müvafiq qiymətləndirmə meyarları üzrə müsbət cavabların əldə olunma imkanlarının müəyyən edilməsi məqsədilə simulyasiyanın aparılıb-aparılmadığı barədə İşçi qrupunun üzvlərinə müraciət etdi. O, qanun layihəsinin sağlamlaşdırma və müflisləşmə sahəsində institusional mexanizmlərin gücləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına və ölkəmizin beynəlxalq reytinqlərdə daha yüksək mövqelərə yüksəlməsinə xidmət edəcəyini qeyd edərək, belə bir təhlilin aparılmasının vacibliyini vurğuladı.

Səkinə Əliyeva bildirdi ki, bu istiqamətdə ayrıca təhlil aparılmayıb. Bununla belə, qanun layihəsi hazırlanarkən beynəlxalq ekspertlərə biznesin müflisləşməsi üzrə qiymətləndirmə meyarlarına daxil olan suallar təqdim edilib və layihənin hazırlanması prosesində həmin suallara müsbət cavabların verilməsinə imkan yaradan tənzimləmələr nəzərə alınıb.

Abiddin Hüseynov belə bir simulyasiyanın aparılmasının vacibliyini qeyd etdi və sözü Ədliyyə Akademiyası Tədris şöbəsinin rəisi Zeynab Qənbərovaya verdi.

Zeynab Qənbərova hər kəsi salamladı və o, Yol Xəritəsinin 4.3-cü bəndi ilə bağlı bildirdi ki, ilk dəfə 3 il müddətinə hakim təyin olunan şəxslər üçün nəzərdə tutulan icbari təlim proqramında “Müflisləşmə və iflas hüququ” mövzusuna yer ayrılmış və həmin mövzu üzrə tədris həyata keçirilmişdir. Həmin təlim proqramında 34 hakim iştirak etmişdir. Yol Xəritəsinin 4.1-ci bəndinə uyğun olaraq kommersiya mübahisələrinə baxan hakimlərin müflisləşmə sahəsində bilik və təcrübələrinin artırılması məqsədilə təlimlərin davam etdirilməsi nəzərdə tutulur. Bu istiqamətdə ötən ildəki təcrübəmizə uyğun olaraq Türkiyə Respublikasının Ədliyyə Akademiyası ilə əməkdaşlıq çərçivəsində distant formada təlimlərin keçirilməsi təşəbbüsü irəli sürülmüşdür. Belə ki, tərəfimizdən 15 sentyabr tarixində Türkiyə Respublikasının Ədliyyə Akademiyasına rəsmi müraciət ünvanlanmışdır. Hazırda Türkiyə Respublikasının Ədliyyə Akademiyası tərəfindən müvafiq təlim proqramının hazırlanması prosesi davam edir. Planlaşdırılır ki, cari ilin sonunadək hakimlər və vəkillər üçün qeyd edilən mövzuda təlimlər həyata keçirilsin.

Yol Xəritəsinin 4.2-ci və 5.1-ci bəndləri ilə bağlı vəkillər üçün sağlamlaşdırma və müflisləşmə sahəsində biliklərin artırılması istiqamətində cari il ərzində Vəkillər Kollegiyası tərəfindən 2 maarifləndirmə tədbiri həyata keçirilmişdir. Distant formada keçirilən təlimlərdə ümumilikdə 198 vəkil iştirak etmişdir.

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil Nihad Əliyev məsələ ilə bağlı söz götürərək qanun layihəsinin tematik qrup üzvləri ilə yanaşı, İşçi qrup üzvləri ilə də paylaşılmasını, habelə Ədliyyə Akademiyası tərəfindən keçirilən təlimlərdə tədris proqramının hakimlərə və vəkillərə münasibətdə eyniləşdirilməsini təklif etdi.

Vüsal Şıxəliyev daha sonra iclası yekunlaşdıraraq hər kəsə öz təşəkkürünü bildirdi.

Abiddin Hüseynov iştirakçılara faydalı, səmərəli müzakirələrə və iştiraklarına görə təşəkkür etdi.

QƏRARA ALINDI:

1. Müraciət olunduğu təqdirdə "Sağlamlaşdırma və müflisləşmə haqqında" qanun layihəsinin İşçi qrup üzvlərinə təqdim olunması;
2. Müvafiq qiymətləndirmə meyarları üzrə müsbət cavabların əldə olunma imkanlarının müəyyən edilməsi məqsədilə simulyasiyanın aparılması;
3. "Sağlamlaşdırma və müflisləşmə haqqında" qanun layihəsinin tematik qrup tərəfindən müzakirə edilərək cari ilin noyabrın 1-dək Azərbaycan Respublikasının Biznes Mühiti və Reytinqlər üzrə Komissiyaya təqdim edilməsi.

İclas sədri _____ Abiddin Hüseynov

İclas katibi _____ Raminə Xəlilova